# Hər gün şəhidlərimizin Anım Günüdür

**Şəhidlik əlçatmayan ucalıqdır, hər kəsin çata bilməyəcəyi igidlik zirvəsidir. Bu zirvəni yalnız və yalnız damarlarından Vətənə sonsuz sevgi qanı axanlar fəth edə bilərlər.**

Şəhidlik həm də örnəkdir, məktəbdir - qəhrəmanlıq, cəsurluq məktəbi. Yaşada-yaşada öyrədən, öyrədə-öyrədə yaşadan məktəbdir. Elə bir məktəb ki, həm bugünkü, həm də gələcək nəsillər o məktəbdən lazım gələrsə, Vətən uğrunda candan keçməyi öyrənirlər.

Hər dəfə Şəhidlər xiyabanına gedəndə, canlarını yurdumuzun azadlığı uğrunda qurban vermiş oğulların məzarlarını ziyarət edəndə şəhidliyin nə qədər müqəddəs olduğunu bir daha dərk edirik. Xiyabana gələnlərin şəhidlərin məzarını necə də böyük ehtiramla, necə də böyük hörmətlə ziyarət etdiklərini görəndə qürur hissləri keçiririk. Düşünürük ki, həyatda ən böyük sevgi Vətən sevgisidir, onun uğrunda döyüşməkdir, bir addım da olsun geri çəkilmədən canından keçməkdir.

Qəhrəmanlıqları, igidlikləri ilə bu ucalığa yüksəlmiş və qürur mənbəyimizə, örnək yerimizə çevrilmiş şəhidlərimizlə Azərbaycan xalqı fəxr edir. Bu gün hamı bir nəfər kimi "Vətən bizimdir, onun uğrunda savaşa və ölümə də hazıram" - deyib canını ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə qurban vermiş oğullarımızı yaxından tanıyır, onların əziz xatirələrini ehtiramla yad edir. Şəhidlərimizin adını əziz tutur, məzarları qarşısında diz çökür.

"Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!" deyən oğullar Qarabağ savaşında böyük cəsarətlə, hünərlə, qorxu bilmədən torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atıldılar. Onlar 30 ilə yaxın erməni işğalında qalmış ərazilərimizi düşmənlərdən təmizləmək üçün rəşadətlə vuruşdular, qəhrəmanlıq göstərdilər, qəsbkarlar üzərində tarixi Zəfər qazandılar, torpaqlarımızın azadlığı naminə düşmən üzərinə şir kimi yürüdülər.

44 günlük Vətən müharibəsində şəhid olmuş oğullarımıza bu gün hamımız borcluyuq. Məhz bu oğulların cəsarəti və hünəri sayəsində Ermənistan silahlı qüvvələri darmadağın olundu, şəhər və kəndlərimiz işğalçılardan azad edildi.

Prezident İlham Əliyev çıxışlarında şəhidlərin qəhrəmanlığını daim yüksək qiymətləndirir. Dövlətimizin başçısı 10 noyabr 2020-ci ildə 44 günlük Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində şəhidlərin qəhrəmanlığından, igidliyindən söz açaraq demişdir: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş torpaqlarda qaldırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi".

İndi ölkəmizin ərazisində elə bir şəhər, qəsəbə, kənd yoxdur ki, orada şəhidlərə abidə ucaldılmasın, onların qarşısına güllər, çiçəklər düzülməsin. Bu ehtiram xalqımızın şəhidlərin xatirəsinə göstərdiyi dərin hörmətin ifadəsidir. Xalqımız tərəfindən müqəddəs ziyarətgaha çevrilmiş bu abidələr bizə Vətənin bütövlüyü və toxunulmazlığı uğrunda müharibənin ağrı-acılarla dolu səhifələrini xatırladır, böyüməkdə olan nəsillərə döyüş ruhu və vətənpərvərlik hissləri aşılayır.

27 Sentyabr - Anım Günündə xalqımız həmişəki kimi yenə də Şəhidlər xiyabanına axışaraq torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş oğulların məzarlarını ziyarət etdi. Onların arasında uşaqlar da, əlillər də, yaşlılar da vardı. Bu, şəhidlərimizə böyük ehtiram və sayğını göstərirdi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 30 sentyabr (№209).- S.9.